SEYFULLA ŞAMİLOV



# NİGARIN MACƏRASI

# NİGARIN MACƏRASI

Biri var idi, biri yox idi, qədim zamanlarda Xəzərin sahilində, Dəmirqapı Dərbənddə Dədə Sarban adlı bir sövdəgər var idi. Bu sövdəgər Türküstandan, İrandan, Həştərxandan mal gətirib Qafqazda satardı. O, çox varlanmışdı. Yaxşı mülkü-malı, bağ-bağçası var idi. Dünyada heç bir şeyə ehtiyacı yox idi. Sövdəgərin arvadı, gənc oğlu və yetişmiş bir qızı var idi. Oğlunun adı Səncər, qızının adı Nigar idi. Nigar o qədər gözəl idi ki, aya deyərdi sən çıxma, mən çıxım, günə deyərdi sən çıxma, mən çıxım. Su içəndə gərdənində görünərdi. Hörükləri topuqlarına dəyərdi. Onu görən deyərdi bir də görum. Nigar gözəl olduğu qədər də ağıllı və nəcib təbiətli idi. Buna görə də atası, anası və qardaşı onu çox sevərdilər.

Dədə Sarban dindar adam idi. Müsəlmanlıq ehkamına bərk riayət edirdi. Bir gün yenə o, səfərdən evinə qayıtmışdı, arvadı və uşaqları ilə görüşəndən sonra qocalığından söz açıb dedi:

— Daha mən qocalmışam. Allaha şükür var-dövlətimiz də az deyil. Ömrünüz boyu yesəniz qurtarmaz. Ancaq mənim boynumda borc var. Mən bu borcu verməliyəm. O da Məkkəyə gedib Kəbəni ziarət etməkdir.

Bu sözləri eşidən kimi evdəkilər çox pərişan oldular. Əvvəlcə sövdəgərin arvadı ərindən xahiş etdi ki, onu da özu ilə aparsın. Sövdəgər buna razı oldu. Sonra arvadı dedi:

— Axı biz ikimiz də qocalmışıq, bu uzaq səfərdə bizə bir kömək lazım deyilmi?

Sövdəgər fikirləşib gördü ki, arvadı ağıllı söz deyir. Buna görə Səncəri özlərilə aparmağı qərara aldılar. Oğlan minnətdarlıq edib dedi:

— Atacan, siz mənim valideynimsiniz. Mənim dünyaya gəlməyimə səbəb siz olmuşsunuz. Sizin qoca vaxtınızda mən də sizə qulluq etməliyəm. Mən heç vaxt razı ola bilmərəm ki, mənim qoca atam və anam uzaq səfərə mənsiz getsinlər. Çox minnətdaram ki, məni də özünüzlə aparmağa razılıq verdiniz.

Oğlan sözünü qurtaran kimi hamı qeyri-ixtiyari olaraq qıza tərəf baxdı. Nigar başını aşağı salıb qəmgin bir halda köksünü ötürdü. Onun bu halı ən əvvəl anasını mütəəssir etdi. O üzünü ərinə tutub dedi:

— Bəs qız necə olsun? Onu tək qoymaq olarmı?

Sövdəgər arvadına cavab verib dedi:

— Ay arvad, sən qızı deyirsən, bəs ev-eşik yadına düşmür? Təkə qazi mənim etibarlı dostlarımdan biridir. Yalnız mən özüm getməli olsaydım, onda sizi ona tapşıracaqdım. İndi isə qızı və ev-eşiyi qaziyə tapşıra bilərik.

Arvad bir qədər nəm-nüm elədikdən sonra çarəsiz qalıb ərinin təklifinə razı oldu.

Nigar həyəcanından özünü saxlaya bilməyib ağlamağa başladı. Onun gözlərindən axan yaş damlaları dizlərinə düşdükcə od kimi yandırırdı. Ağlayıb ürəyini boşaltmaq üçün eyvana çıxdı. Gecə aydınlıq idi. Bağçadan əsən ətirli və sərin meh onun üzünə toxundu. Gül budaqlarında oxuyan bülbüllərin ürək yandıran nəğməsi gənc Nigarın qəlbini daha da kövrəldirdi. Onu qəhərləndirən yalnız uşaqlıqdan bəri sevdiyi mehriban valideynindən və yeganə qardaşından ayrılmaq idi. O, bu ayrılığa neçə dözə biləcəyini təsəvvürünə belə gətirə bilmirdi. Lakin, atasının sözündən çıxmağa da cəsarət etmirdi. Onun qəlbi yalnız bir məhəbbətdən xəbərdar idi, o da ata və anasına, bir də qardaşına olan məhəbbət idi. Onun gözlərindən axan yaşa səbəb də bu idi.

Qardaşı onun dalınca eyvana çıxıb gördü ki, bacısı ay işığında məhəccərə söykənib ağlayır. Qız qardaşını görçək üzünü sakit etməyə çalışdı. Qardaşı onu dilə tutub könlünü alaraq evə apardı. Sövdəgər söhbəti dəyişdirmək üçün süfrəyə çərəz kətirilməsini əmr etdi. Ağlamaqdan qara, iri gözləri qızarmış Nigar heç bir şey olmamış kimi çərəz gətirib səliqə ilə süfrəyə düzdü; badam, püstə sındırdı, meyvə soyub atasının qabağına qoydu.

Həftələr, aylar gəlib keçdi. Nigar qüssədən arıqlamışdı. O, vaxtını ancaq cürbəcür əl işlərilə məşğul olmaqla keçirirdi. Qazinin böyük oğlu tez-tez onun yanına gəlirdi. Son zamanlar Nigar oğlanın hərəkətindən razı deyildi. Çünki

oğlan onunla başqa cür rəftar etmək fikrində idi. Bir neçə dəfə o zorla qızı tutub öpmək istəmişdi. Qız isə həmişə onu rədd edirdi. Sonra oğlan gecələr də Nigarı narahat etməyə başladı. Qız utandığından və el içində rüsvay olmasından qorxaraq məsələni açıb ağarda bilmirdi. Çünki Təkə qazi çox nüfuzlu bir adam idi. Məsələ açılsaydı hamı onun tərəfini saxlayacaq və heç kəs Nigarın sözünə inanmayacaqdı. O da bədnam olacaqdı. Zavallı qız tora düşmüş balıq kimi çırpınırdı. Nə qədər düşünürdüsə də heç bir çıxış yolu tapa bilmirdi. Kim bilir atasıgil nə vaxt gələcəkdi. İndi o gecələri, gündüzləri göz yaşı ilə yola salırdı. Hər dəfə həzin-həzin bayatı çağırıb oxuyurdu:

Əzizinəm dəryada,
Gəmim qaldı dəryada.
Ağladım, göz yaşımdan
Doldu, daşdı dərya da.

Bir gün Təkə qazinin oğlu Nigara qarşı zor işlətmək istədikdə o özünü müdafiə etməli oldu. İş o yerə gəldi ki, qız namusunu qorumaq üçün təcavüzkara zərbə endirməyə məcbur oldu. Oğlan başının qanı axa-axa evlərinə qaçdı. Qazi əhvalatı bilən kimi məsələyə başqa don geydirdi: guya ki, qazinin oğlu Dədə Sarbanın qızının yanına gələn bir nəfər şəxsi tutmaq istərkən həmin adam vurub onun başını yarmışdı. Bu xəbər bütün Dəmirqapı Dərbəndə yayıldı. Hamı hörmətli Dədə Sarbana heyfsləndi, onun qızına lənət oxudu. Qazi sövdəgərin yaxın şəhərlərdən birində düşərgə saldığını eşidib əhvalatı qabaqcadan ona bildirmək üçün bir qasid göndərdi. Qasid İran şəhərlərindən birində bir karvansarada sövdəgəri tapdı. Xoş-beş etdikdən sonra qasid qoynundan bir məktub çıxarıb sövdəgərə verdi. Sövdəgər məktubu alıb oğluna oxutdurdu. Məktub belə başlayırdı:

«Ey hörmətli və nüfuz sahibi Dədə Sarban! Heyf olsun ki, sənin kimi kişinin belə naxələf qızı vardır. O zamandan ki, siz ziyarətə gedibsiniz, biz keşik çəkməkdən təngə gəlmişik və heç vəchlə onun öhdəsindən gələ bilmirik.

Xalq içində sizi rüsvay etmişdir. Kim deyə bilərdi ki, Dədə Sarbandan belə övlad törəyə bilər. Bizim də qəyyumluq haqqımız bu oldu ki, qızın axırda



oğlumuzun başını yardıdı. Əlbəttə, belə bir əməlin sahibi yəqin ki, öz günahını boynuna almayacaq və bütün təqsiri mənim oğlumun boynuna qoyub özünü sizin nəzərinizdə təmizə çıxarmağa çalışacaqdır. Bu barədə sizi xəbərdar etmək üçün həmin məktubu köndərirəm. Ümidvaram ki, məktubun məzmununa şübhəniz olmaz.

*Qazi»*

Heyrət və qəzəbdən sövdəgərin gözləri kəlləsinə çıxdı. Qızın anası başına, döşünə döyərək şivən qopartdı. Qardaşının rəngi ağappaq ağardı. Elə bil ki, onların başları üzərində ildırım çaxmışdı. Sövdəgər hirsindən az qala ağlını və mühakiməsini itirmişdi. Tez oğluna əmr etdi ki, dayanmayıb yola düşsün və tezliklə alçaq qızının qanlı köynəyini ona gətirsin. Biçarə arvad nə qədər yalvarıb yaxardısa sövdəgər qulaq asmadı. Səncər yola düşdü.

Ata-anasının və istəkli qardaşının intizarını çəkən Nigar hər gün səhər tezdən yerindən qalxır, qapı-bacanı süpürüb təmizləyir, ev-eşiyi sahmana salır, çay qoyur, onların yolunu gözləyirdi. Onun qulağı daima səsdəydi. Küçədə bir səs eşidən kimi tez yüyürüb baxırdı ki, görsün gələn kimdir. Elə vaxt olurdu ki, gecə səhərə kimi gözlərinə yuxu getmirdi. Yuxusunda da yenə sevimli valideynini görürdü. Lakin yazıq qız Təkə qazinin onun atasına yazmış olduğu məktubdan xəbərdar deyildi. O fikir edirdi ki, başına gələn əhvalatı olduğu kimi valideyninə söyləyərək özünün tamamilə günahsız olduğunu onlara bildirəcəkdir.

Sən saydığını say, gör fələk nə sayır. Yəni riyakar və böhtançı adamlar, gör nə hiylələr qururlar!

Bir gün yenə gözəl bir yaz səhəri idi. Güllərə, çiçəklərə meh düşmüşdü. Nigar hovuzun başına gedərək əl-üzünü yudu, başını gözünü düzəltdi və ən çox bəyəndiyi paltarlarından birini geyib bağçaya tərəf getdi.

Deyəsən ürəyinə dammışdı. Çox narahat idi, bir yerdə durub dayana bilmirdi. Elə bu vaxtda darvaza döyüldü. Nigar tez darvazaya tərəf qaçdı və onun balaca qapısını açanda öz gözlərinə inanmadı. Səncər qaşqabaqlı bir halda həyətə girdi. Bacı ürəyi tab gətirməyib qollarını açaraq qardaşının boynuna sarılmaq istədi. Səncər əlilə onu özündən kənara itələdi. Qız təlaşla soruşdu:

— Səncər! Qardaşım! Bəs niyə belə edirsən? Bəs atamız, anamız hanı?!

Səncər evə doğru gedə-gedə dedi:

— Görünür, sənin heç bir şeydən xəbərin yoxdur? Sən bizi el içində rüsvay edib namusumuzu ləkələdiyin üçün atam məni göndərmişdir ki, səni öldürüb qanlı köynəyini ona aparım. İndi mən gözləyə bilmərəm, tez ol, hazırlaş!

Qız qardaşından bu sözləri eşidəndə az qaldı ağlı başından çıxsın.

— Necə?! Mən valideynimi rüsvay edib onların namusunu ləkələmişəm?! Allah şahiddir ki, bu böhtandır! Qoy həqiqəti sənə söyləyim! Nə varsa hamısını olduğu kimi deyim!

Səncər onun sözünə qulaq asmaq istəməyib dedi:

— Mən səninlə sorğu-sual aparmağa gəlməmişəm. Mən səni öldürməyə gəlmişəm. Atamın mənə əmri budur. Lakin bu əmri yerinə yetirməyə ürəyim razılıq vermir. Tez ol, nə götürəcəksənsə götür, düş qabağıma, aparım səni çöldə azdırım. Başqa çarəm yoxdur. Atamı qane etmək üçün çöldə bir ov vurar, sənin köynəyini onun qanına bulayıb ona apararam. Soruşsa deyərəm ki, başını kəsdim, özünü də suya atdım.

Bədbəxt bacı qardaşının etdiyi təklifə razı oldu. Onlar yola düşüb xeyli gedəndən sonra şəhərdən tamamilə uzaqlaşdılar. Az getdilər, üz getdilər, yoxuşlar qalxıb enişlər endilər, axırda gəlib bir çöl-biyabana yetişdilər. İkisi də yorulmuşdu. Qardaş bacıya təklif etdi ki, o, bir qədər oturub dincəlsin. Nigar yorğun və əzgin bir halda böyük bir çinar ağacının kölgəsində durna gözlü soyuq bir bulaqda əl-üzünü yuyaraq bir az su içib oturdu. Səncər dedi:

— Bacı, sən çox yorulubsan, uzan bir az dincəl. Qız razı oldu. Səncər öz geyməsini çıxarıb onun üstünə salandan sonra qoltuğundan yan tütəyini alıb həzin-həzin çalmağa başladı. Nigar qardaşının çaldığı tütəyin xoş sədalı laylası ilə şirin yuxuya getdi. Səncər bacısını yuxuda qoyub ondan ayrıldı. Gedərkən yolda oxla bir ceyran vurub bacısının evdən götürdüyu köynəyini onun qanına buladı və bir neçə gün yol gedəndən sonra gəlib həmin düşərgədə ata və anasını tapdı. Səncər qanlı köynəyi çıxarıb atasının qabağına tulladı. Qəzəbli sövdəgərin ürəyi sakit oldusa da, yazıq ana ağlayır, gözlərinin yaşını sel kimi axıdırdı.

Dədə Sarban özünün zalım hökmündən peşman olsa da bunu heç bildirmək istəmirdi və onun qorxusundan heç kəs. də bu barədə mübahisə açа bilmirdi. Onlar məyus və peşman halda öz evlərinə yola düşdülər. Ancaq çoxdan bəri onların yolunu səbrsizliklə gözləyən mehriban Nigar isə indi daha onları qarşılamayacaqdı.

Görək yazıq Nigarın başına sonra nələr gəldi. O, şirin yuxudan ayılıb ətrafında heç kəsi görmədi. Günortadan xeyli keçmişdi. Öz üstündə qardaşının geyməsini gördükdə geyməni bağrına basdı, onu gül kimi iyləyib ağladı. Ancaq ağlamaqdan nə çıxardı; duzlu göz yaşlarından yanaqları od tutub yanırdı. Gözləri lalə tək qızarmışdı. Nəhayət bir qədər sakit olandan sonra düşdüyü çətin və qorxulu vəziyyəti anladı. Bulaqda əl-üzünü yuyub bir qədər fikrə getdi. Sonra qardaşının qoyduğu geyməni geydi, şahmar kimi uzun hörüklərini yığıb başını köhnə bir dəsmalla bağladı. Öz gözəlliyini örtüb gizlətməyə çalışdı. Özünü qarabaş sifətinə, hətta mümkün olduqca nökər sifətinə salmağa çalışdı. İndi o, yırtıcı heyvanlardan daha çox insanlardan qorxurdu. Bilirdi ki, bu gözəllik onun başına yeni bəlalar gətirə bilər. Ağzına bir tikə yavan çörək salıb soyuq sudan içdi. Hansı tərəfə gedəcəyini bilmirdi. Gəldiyi səmti unutmuşdu. Buralarda nə bir cığır, nə də insan ayağının izi var idi. Yenə ürəyi sıxılmağa başladı. İxtiyarsız olaraq gözlərindən yaş axırdı. Öz-özünə dedi: «Axı mənim günahım nədir? Allah, sən özün bilirsən ki,

mənim heç bir kunahım yoxdur! Sən mənə kömək et, mənə bir yol göstər!» Ançaq heç yandan onun səsinə səs verən yox idi. O qorxmağa başladı. Lakin, içəridən bir səs ona deyirdi: «Qorxmaqdan nə çıxar? Qorxmaqla sən çətinlikdən xilas ola bilməzsən, qorxu özü də sənə bir düşməndir. O səni daha da əzib məhv edər. Ürəkli ol, addımlarını cəsarətlə at, üzünü bir səmtə tutub get, bəlkə gedib bir yerə çıxa biləsən!»

Eşitdiyi bu sözlərdən sonra onun dizinə qüvvət və qəlbinə cürət gəldi. O, qalın meşənin ətəyilə uzanan keniş çöllərə doğru yönəldi, uzaqlarda dağlar, təpələr və böyük bir çay görünürdü. Yol ilə gedərkən qabağından bir dovşan qaçdı. Dovşan kah qaçır, kah da daynıb ona baxırdı. Nikar öz ürəyində deyirdi: «Ey çölün heyvanı, məndən qorxma! Məndən sənə ziyan gəlməz!» Sonra onun qabağına bir tülkü çıxdı, bu da uzun quyruğunu yerlə sürüyə-sürüyə kah qaçır, kah da dayanıb nabələd yolçuya baxırdı. Bir qədər gedəndən sonra Nigar meşə tərəfdən çox yaraşıqlı bir maralın suya doğru getdiyini gördü. Nigar ömründə diri maral görməmişdi. Maral da dayanıb ətrafa boylandı. Qız marala baxarkən ürəyindən qəribə arzu keçdi: «Nə olaydı, bu vəhşi heyvanların dilini biləydim. Onlarla dərdləşmək-mənə mümkün olaydı. Görəydim bu çöldə onların başına nələr gəlmişdir? Axı, onlar da yaşayırlar. Yəqin onların da özlərinə görə dərdləri, qayğıları vardır. Heyhat! Bu mümkün deyildir».

Ucsuz-bucaqsız çöllərə, meşələrə, dağlara, təpələrə baxdıqca Nigarın başından min xəyal, min sual gəlib keçirdi. İndiyə kimi o dünyanın, təbiətin belə zəngin və mənalı olduğunu heç fikrinə də gətirməmişdi. O əvvəllər elə bilirdi ki, dünyada varsa da, yoxsa da ancaq onların öz həyətləri və güllü bağçalarıdır. Başına belə bir macəra gələcəyini, ucsuz-bucaqsız çöllərin ona məskən olacağını haradan xəyalına gətirə bilərdi? Məsəldir, deyərlər:—«Ayaq mərd olar, göz isə namərd». Nigar uzaqlara nəzər saldıqca bir tərəfə gedib çıxa biləcəyinə inanmırdı, lakin ayaqları ona fikir vermədən irəliləyirdi. Bir neçə gün bu sayaqla yol gedərək nəhayət gəlib tanımadığı bir şəhərin kənarına yetişdi. Evdən götürdüyü çörək çoxdan qurtarmışdı. Acdıqda çöldə yeməli otlardan, cır meyvələrdən yeyib bir təhər dolanırdı. Üstü-başı büsbütün didilib

tökülmüşdü. Küləkdən, gündən üz-gözü bozarıb qaralmışdı. Heç kəs deməzdi ki, bu həmin o gözəllər gözəli Nigardır. Yol getməkdən ayaqları qabar olmuşdu. Dizləri taqətdən düşmüş və bədəni zəifləmişdi. Bu görkəmlə şəhərə gedib camaatın gözünə görünmək istəmirdi. Qaranlıq düşənə kimi şəhərin kənarında qalmağı qərara aldı. Yapalaqlar uçmağa başlayanda şəhərin içindən axan çayın kənarına gəlib orada suyun üzərinə əyilən böyük bir söyüd ağacının başında özünə yer düzəldib gecəni orada qaldı. Şahzadə həmişə səhər tezdən buraya atını suvarmağa gəlirdi. O, yenə atını suvarmağa gəldikdə at hürküb suya yaxın getmədi. Şahzadə atı bir neçə dəfə qamçı ilə vurdu. At yenə suya yaxın durmayaraq geri sıçradı. Şahzadə təəccüblə ətrafına göz gəzdirdi. Səhər yenicə açılmışdı. Birdən onun gözü suyun üzərinə sallanan söyüd ağacının başındakı qaraltıya sataşdı. Şahzadə diqqətlə baxıb gördü ki, insana bənzər qəribə bir məxluq ağacda qıvrılıb yatmışdır. Atını minib yavaşca o taya keçdi və ağaca yaxınlaşıb:

— Kimsən?—deyə qışqırdı.

Nigar yuxudan ayılaraq aşağı baxdıqda atın üstündə gözəl bir oğlan görüb zəif səslə ona yalvarmağa başladı:

— Mən bir qərib yolçuyam. Gecəni bu ağacın başında keçirməyə məcbur olmuşam. Əgər siz rəhm və insaf əhlisinizsə mənə kömək edin.

Şahzadə bu səsi eşitdikdə onun zərif danışığı ilə görkəmi arasında uyğunluq olmadığına fikir verdi və:

— Hər kimsən, ağacdan aşağı düş!—deyə əmr etdi.

Qız yavaşca ağacdan yerə endi. Şahzadə naməlum yolçunu atın tərkinə alıb birbaş öz evinə gətirdi və otaqlarının birini ona verib nökərlərinə tapşırdı ki, ondan muğayat olsunlar.

Şahzadənin valideynləri başqa şəhərdə yaşayırdılar. Özü isə bu şəhərin valisi idi. Qonaq saraya gələn gündən özünü oğlan kimi tanıtdığına körə həmişə ancaq oğlan paltarı geyirdi. Xidmətçilər bu qəribə qonağın sirrini bilmək üçün çox maraqlanırdılar. Bir gün şahzadə öz nökərlərinin birisindən qonağın barəsində soruşduqda nökər şahzadədən icazə istəyib dedi:

— Şahzadə sağ olsun, qonaq çox qəribə adamdır. Əvvəla o heç avara və axmaq adama bənzəmir. Onun oğlan olması da şübhəlidir. Oğlan paltarı geyməsinə baxmayaraq hərkətlərindən qıza daha çox oxşayır. Yeməsindən, içməsindən də nəcib adama bənzəyir.

Şahzadə nökərin dediklərini eşidib heç bir söz demədi. Təklikdə fikirləşəndən sonra bu qərara gəldi ki, qəribə qonağı güdmək və onun sirrini öyrənmək lazımdır.

Bir gün səhər tezdən şahzadə sirrli qonağın yaşadığı otağın pəncərəsindən içəri baxanda gördü ki, orada saçları pərişan halda yastığın üstünə tökülmüş nazənin bir qız yatır. Qızın uzun və qara kirpikləri qapalıydı. Onun insanı cəzb edən gözəl üzü, günahsız və təmiz qəlbli uşağı xatırladırdı. Şahzadə özünü itirdi. O hələ bu cür gözəl üz görməmişdi. Xeyli tamaşa edəndən sonra sevinmiş bir halda öz mənzilinə qayıtdı. Nökərini çağırıb əmr ətdi ki, qonaq səhər yeməyini onunla birlikdə yeməyə dəvət olunur.

Heç bir şeydən xəbəri olmayan Nigar isə həmişəki kimi yenə yerindən qalxıb öz oğlan paltarını geydi, əl-üzünü yudu, sonra oturub səhər yeməyini gözləyirdi ki, birdən xidmətçi içəri girib şahzadənin dəvətini ona xəbər verdi. Qız o saat şübhələndi, ancaq iş-işdən keçmişdi, qalxıb şahzadənin hüzuruna getməli oldu. Şahzadə onu nəzakətlə qəbul edib xidmətçi qadınlardan birisini çağırdı və əmr etdi ki, onu aparıb layiq olduğu paltarı geydirsinlər, yəni qız paltarı geydirsinlər. Bir az keçəndən sonra nazənin Nigar şahzadənin qarşısında dayanmışdı. Şahzadə ona yer göstərib oturmasını xahiş etdi. Onlara yemək gətirdilər. Şahzadə ondan kim olduğunu və başına gələn macəranı söyləməsini xahiş etdi. Nigar başına gələni şahzadəyə söylədi. Şahzadə çox mütəəssir olub tez məhəbbətini ona bildirdi. Qız şahzadəyə layiq olmadığını təkid etdisə də şahzadə onunla razılaşmayıb yenə onu sevdiyini təkrar etdi. Bir ay vaxt təyin edildi. Bu muddət ərzində şahzadə öz valideyninin razılığını almalı və sevgililər bir-birlərinə daha da yaxından bələd olmalı idilər.

Şahzadə öz otağına getdi. Ömründə birinci dəfə idi ki, o, sevginin nə olduğunu hiss edirdi. Bir qədər fikirləşəndən sonra qələm və kağız götürüb atasına belə bir məktub yazdı:

«Əziz və Hörmətli ata! Əvvəla, bu məktubu yazmağa cürət etdiyim üçün sizdən üzr istəyirəm. Mehriban ata, mənim xoşbəxtliyimə şad olacağınıza şubhəm yoxdur. Tale mənə közlənilməyən yerdən bir namizəd yetirmişdir. O, dedikcə gözəl və ağıllı bir qızdır. Sizin rəyinizi bilmək istəyirəm, sizdən xahiş edirəm ki, sevdiyim qızla evlənmək üçün mənə icazə verəsiniz. Əziz və mehriban valideynlərimə çoxlu salam və ehtiram!»

Məktubun cavabını gözləməklə bərabər şahzadə ilə Nigar hər gün öz vaxtlarını xoş keçirir və bir-birlərinə daha da isnişirdilər. Ketdikcə qızın xasiyyəti oğlana və oğlanın da xasiyyəti qıza xoş gəlməyə başlayırdı.

Bunları məhəbbət aləmində qoyub indi keçək şahzadə Cavanşirin atası məktuba nə cavab verdi. Qoca və şanşöhrət sahibi olan padşah öz oğlunun yazdığı məktubdan heç xoşlanmadı. Saray əyanlarını yığıb məsləhətləşdikdən sonra öz katibinə aşağıdakı məzmunda bir məktub yazdırıb göndərdi:

«Oğlum Cavanşir! Sən nə zamandan bəri öz əsl-nəsəlini yadından çıxarmağa başlamışsan? Gəldi-gedər bir qızla evlənmək fikri sənin ağlına haradan gəlmişdir? Sən bilmirsənmi ki, mənim evladım ancaq özunə layiq yerdən evlənə bilər! Ata-babası məlum olmayan təsadüfi bir qızla evlənməyi məndən xahiş edərkən özünü kimin yerinə qoyursan? Zadəkanlardan kimin qızını istəsən mən elçi göndərib onu sənə alaram. Yoxsa hər qabağına çıxan qızla evlənməyi məndən xahiş etmə. Mən buna razılıq verə bilmərəm. Atan Ərpolad».

Qasid atı qamçıladı. Onun mindiyi ərəb köhləni mənzilkəsən idi, quş kimi uçurdu. Lakin laqeyd qasidin iki sevgili üçün apardığı xəbər sevindirici deyildi. Atın ayaqları altından qığılcımlar qalxırdı. Qasid şahzadə Cavanşirə apardığı xəbərdən özü də bixəbər idi.

Şahzadə öz könül dostu Nigarla seyrə çıxmışdı. O, gözəl yerləri və qədim zamanlardan qalmış tarixi abidə və bürcləri gəzərək onların haqqında Nigara



rəvayətlər söyləməklə bərabər həm də Nigara onun vətəninə dair suallar verib onu danışdırmaq istəyirdi. Nigar isə vətən sözünü eşidəndə qəmgin olurdu. Onun yadına evləri və ata-anası düşürdü. Onun qəlbindən bir quş olub vətənə uçmaq, bir an da olsa onu görmək fikri keçirdi. Cavanşir ona təsəlli verməyə çalışır, günlərin birində oranı ziyarət edəcəklərini vəd edirdi. Başları səmimi söhbətə qarışan sevgililər şəhərə nə zaman yetişdiklərini bilmədilər. Bir də ayılıb gördülər ki, sarayın darvazasındadırlar. Xidmətçilər tez yüyürüb onların atlarının başını tutdular. Cavanşirlə Nigar öz mənzillərinə getdilər. Nigkar öz otağına getmək üçün icazə istədikdə Cavanşir ondan xahiş etdi ki, naharı onunla birlikdə yesin. Qız da razı oldu. Nə isə Nigarın ürəyi dolmuşdu. Bu əsnada xidmətçi içəri girib şazadəyə qasidin gəldiyini xəbər verdi. Şahzadə dərhal qasidin içəri gəlməsinə izn verdi. Qasid təzim edərək məktubu şahzadəyə verib çıxdı. Məktubun məzmunundan xəbərdar olan Cavanşir bir ay özünü xəstə kimi hiss etdi. Öz sevgilisinə bu barədə heç bir söz demirdisə də, qız onun xəstəliyinin əsl səbəbini başa düşürdü. Şahzadə atasının varisi olmaq hüququndan əl çəkməyi qət edərək yalnız yaşadığı şəhərin valisi olmaqla kifayətləndi. Bu barədə atasına xəbər verdikdən sonra o qırx gün, qırx gecə toy edib Nigarla evləndi. Toyda qara camaat da var idi. Şahzadənin bu hərəkəti xalqa çox xoş gəldi. Şəhərin ən mahir sənətkar və ustaları ona cürbəcür hədiyyələr qayırıb gətirdilər. Hər yerdə camaat şahzadənin şah nəslindən olmayan sadə bir qızla evlənməsindən danışırdı. O, əhalinin rəğbətini qazanmaq üçün sənətkarlardan, kəndlilərdən və öz zəhmətilə yaşayan təbəqələrdən alınan vergiləri azaldıb bu vergiləri tacirlərin, mülkədarların və sələmçilərin üzərinə yüklədi. Ölkədə yaşayan sənətkarlar daha da həvəslə işləməyə və yaxşı şeylər qayırmağa başladılar. Şahzadə şəhərin ağıllı, sənətkarlarından bir neçə nəfərini seçib onları özünə köməkçi qoydu, Hərəsinə bir vəzifə tapşırdı. Çoxları şahzadənin etdiyi yeniliklərin səbəbini onun zadəgan olmayan bir qızla evlənməsində görürdülər. Bəlkə də beləydi. Hər halda şahzadə indi xeyli dəyişilmişdi.

Bir qədər keçəndən sonra şahzadənin bir oğlu və bir qızı oldu. Uşaqlar əkiz idilər. Oğlan atasına, qız isə anasına oxşayırdı. Oğlanın adını Oxtəkin, qızın adını isə Gültəkin qoydular. Bir neçə il gəlib keçdi. Bir gün şahzadə yenə şikara çıxmışdı. Şikarda o iki ceyran vurub atının tərkinə bağlayıb qayıtdı. Oxtəkin ilə Gültəkin öz atalarını qarşılamaq üçün onun qabağına çıxmışdılar. Həmişə Nigar uşaqların əlindən tutub ərini qarşılamaq üçün özü qabağa çıxardı. Bu dəfə şahzadə uşaqları anasız gördükdə təəccüb edib tez atdan düşdü, onları qucaqlayıb öpdü və analarının harada olduğunu soruşdu. Xidmətçilər dedilər ki, xanım bütün günü evdən bayıra çıxmamışdır, deyəsən onun kefi yoxdur. Şahzadə uşaqların hərəsini bir qolunun üstünə alıb tez evə gəldi və gördü ki, Nigar gözləri yaşlı, əhvalı pərişan bir halda oturmuşdur. Şahzadə uşaqları yerə qoyub arvadının boynunu qucaqladı və soruşdu:

— Sənə nə olmuşdur?

Nigar əvaşça başını qaldırıb gözlərini sildi.Ağladığını ərindən və uşaqlardan gizlətmək istədi. Şahzadə yenə diqqətlə ona baxdı. Nigar ərinin əlindən tutub üzr istədi:

— Heç bir şey olmamışdır. Bağışla... Ürəyim bir qədər darıxmışdı. Özgə heç bir şey yoxdur.

Şahzadə sakit olmaq istəmirdi.

— Axı, de görüm, səni ağladan nədir? – deyə inadla soruşdu.

Nigar bu dəfə yalvarıcı nəzərlə ərinə baxanda birdən dodaqları qaçdı. Sanki ürəyindəki arzusunu demək üçün öz istəkli ərini imtahana çəkirdi.

— Qorxuram səni qəzəbləndirəm.

— Niyə? Nə olmuşdur ki?

— Heç bir şey olmamışdır. Səndən kizlədiləcək heç bir şey yoxdur, Cavanşir! Mənim əzizim, axı mən də insanam! Mənim də ürəyim daşdan, qayadan deyildir. Atam, anam və qardaşım yadıma düşəndə ixtiyarsız olaraq gözlərimin yaşı axmağa başlayır. İnan ki, bundan başqa mənim səndən gizli heç bir fikrim və xəyalım yoxdur. Əgər bunu mənə günah bilirsənsə onda cəzamı özün ver.

Cavanşir Nigarın boynunu qucaqlayıb onun dodaqlarından öpdü və dedi:

— Nigar, sən nə danışırsan! Cəza nədir! Mən səni xüsusi müşayiətçi dəstəsilə uşaqlarla birlikdə yola salaram, gedib ata-ananı və öz vətənini görərsən. Sonra isə mən özüm də sənin dalınca gələrəm. Buna razısanmı?

Nigar bu sözü eşidən kimi sevindiyindən uşaq kimi ağlayaraq başını ərinin sinəsinə qoydu. Uşaqlar da onlara sarıldılar.

Bir həftə səfərə hazırlıq görüləndən sonra şahzadənin əmrilə onun ailəsini müşayiət etmək üçün xüsusi bir mühafizə dəstəsi təyin edildi. Dəstənin başçısı Cəbə sərtib təyin olundu. Süvarilər, xidmətçi və keşikçilər Cəbə sərtibin sərəncamına verildi. Şahzadənin ailəsi xüsusi bir kəcavədə, xidmətçilər isə başqa bir kəcavədə yerləşdirildi. Şahzadə böyük təntənə ilə öz mehriban ailəsini yola salarkən arvadını və uşaqlarını bağrına basıb dyuönça öpdü. Nəhayət onlar vidalaşıb ayrıldılar.

Qabaqda süvari dəstəsi, ortada yüklü dəvələr və kəcavələr, lap arxada isə Cəbə sərtib bir neçə nəfər öz yaxın adamları ilə at üstə gedirdilər. Şahzadənin tapşırığına görə gündüzlər iki dəfə düşərgə edib çadır qurmalı və Nigar xanıma, onun uşaqlarına dincəlmək imkanı verilməli, kecələr isə yol getməyib düşərgədə qalmalı idilər. Səfər üçün hər cür sursat və ərzaq götürülmüşdü. Qırx gün, qırx kecə yol gedəndən sonra Dəmirqapı Dərbəndə yetişəcəkdilər. İlin payız fəsli idi. Gecələr çox qaranlıq olurdu. Gündüzlər süvarilər ov edə-edə gedirdilər. Vurduqları maral, ceyran, cüyür, dağ keçisi, quşlardan isə ən çox qırqovul, turac və kəklik idi. Gecələr düşərgədə süvarilər növbətlə Nigar xanımın çadırına keşik çəkirdilər.

Yol yarı olmağa az qalmışdı. Bir gecə yenə keşik çəkmək üçün Cəbə sərtibin əmrilə Nigar xanımın çadırına keşikçi təyin edilməliydi. Bu dəfə Cəbə heç kəsi təyin etmədi. Gecədən xeyli keçəndən sonra o özü çadıra getdi. Nigar xanım hələ yatmamışdı, uşaqlarına nağıl söyləyirdi. Oxtəkin ilə Gültəkin hərəsi onun bir yanında oturub maraqla qulaq asırdılar. Nigar xanım çox təmiz və şirin danışırdı. Uşaqlar analarına qibtə edərək deyirdilər.

«Ana, bəs biz nə vaxt sənin kimi gözəl danışa biləcəyik?»

Anaları onları oxşayıb deyirdi: «Mənim gözəl balalarım, böyüyündə siz məndən də gözəl danışacaqsınız. İndi hələ ananıza qulaq asın. Mən də gözəl danışmağı anamdan öyrənmişəm».

Cəbə Nigar xanımla uşaqlarının söhbətinə gizlində qulaq asırdı. O gördü ki, onlar hələ yatmamışlar. Tez geri qayıtdı. Bir xeyli keçəndən sonra yenə çadırın yanına getdi. Bu dəfə çadırdan heç bir səs eşidilmirdi. O yavaşca içəri girmək istədikdə adəti üzrə çox sayıq yatan Nigar xanım tez yuxudan ayılıb qışqırdı:

— Kimdir?

Cavab çıxmadı. O bir neçə dəfə hündürdən qışqırıb soruşdu, lakin yenə də səs gəlmədi. Nigar xanım gördü ki, kim isə qaranlıqda çadıra soxulmaq istəyir. Fikirləşdi ki, bəlkə keşikçilərin yuxuya getdiyini bilib oğurluğa gələn vardır. Birdən Cəbə tez içəri soxulub Nigar xanımı sakit etməyə başladı. O əvvəlcə Nigar xanımı dilə tutmaq istədi. Lakin gördü ki, qadın öz namusunu qorumaq üçün hər cür müqavimətə hazırdır, onda hiddətlənib onu ölümlə hədələməyə başladı. Nigar xanım dedi:

— Sizin kimi alçaqların əlində namussuz olmaqdansa ölmək daha yaxşıdır.

Cəbə qeyzləndi. Onun gözlərində vəhşi ehtiras alovu yanırdı. O, xəncərini sıyırıb:

— Onu bilməlisən ki, burada hökmdar mənəm. Heç kəs mənim əmrimdən çıxa bilməyəcəkdir. Öl desəm ölər, qal desəm qalarlar. Mənim istədiyimə əməl etməyən şəxsin bax bu xəncərlə qanını tökmək mənim əlimdədir. Əvvəlcə balalarının başını, sonra da sənin başını kəsəcəyəm. İndi fikirləşib cavab ver. Sənə möhlət verirəm!—deyə çadırdan çıxdı. Nigar xanım gördü ki, zalım və alçaq Cəbədən insaf və ədalət kezləmək olmaz, onda ərinin tapşırığını xatırlayaraq özü ilə götürdüyü bir cüt göyərçini tez açıb havaya buraxdı, göyərçinlərin uçub qayıtması bədbəxt hadisə üz verdiyinə işarə idi. Nigar

uşaqlarını çadırda yatan qoyub başını-gözünü sarıdıqdan sonra ceyran kimi sıçrayıb qaranlıqda yox oldu.

Cəbə çadıra qayıdanda gördü ki, lələ köçüb, yurdu qalıbdır. Nigar xanım yoxdur. Canına qorxu düşdü. Yatan uşaqları oytmaq istəmədi. Tez xidmətçiləri yuxudan oyadıb həyəcan şeypuru çaldırdı. Bütün süvari dəstəsinə, keşikçilərə və xidmətçilərə Nigar xanımın öz balalarını çadırda qoyub qaçması barədə xəbər yaydı. Bu əhvalatı eşidəndə hamı mat qaldı. Belə şayiə buraxıldı ki, guya şahzadənin aldığı qız qaraçı tayfasındanmış. Hərə bir söz deyirdi. Lakin iş-işdən keçmişdi. Cəbənin əmrilə müşayiətçi dəstəsi qara xəbərlə geri dönməli oldu. Uşaqlar ağlaya-ağlaya gözləri yaşlı xidmətçilərlə bir kəcavədə yrləşdirildi.

Göyərçinlər qayıdan gündən şahzadə çox nigarançılıq çəkirdi. Müşayiətçilərin bu tezliklə qayıtması isə onu tamamilə çaşdırdı. O, əhvalatı biləndən sonra heyrətiidən donub qaldı. Şəhər əhalisi qırx gün yas saxladı. Lakin şahzadənin öz valideynindən aldığı kinayəli və məzəmmətli məktublar onun dərdini daha da artırmışdı. Ancaq əhvalatın əsl sirrini xain Cəbədən başqa heç kəs bilmirdi. Cəbə güman edirdi ki, Nigar xanımı çöldə yırtıcı heyvanlar parçalayıb məhv edər, onun izi-tozu qalmaz. Onun etdiyi cinayət isə həmişəlik üstü örtülü qalar.

Bunlar qalsın burada, görək yazıq Nigarın başına daha nə macəralar gəldi.

Cəfalı yolların yolçusu Nigar gecə-gündüz dayanmadan yol gedirdi. İndi onun qəlbini yaralayan və onu hər şeydən çox düşündürən sevimli balaları idi: «Görəsən zalım Cəbə uşaqlara bir şey etmədi ki? Görəsən Cavanşir mənim başıma gələn fəlakətdən xəbər bildimi? Görəsən Cəbə ona nə cavab verdi? Görəsən Cavanşir əhvalatın əsl həqiqətini biləcəkdirmi, yoxsa bu cinayət həmişəlik gizli qalacaqdır?!»

Nigar bu fikirlərdən bir an belə ayrılmadan az getdi, üz getdi, dərə, təpə, düz getdi, axırda gəlib Muğanda bir çobana rast kəldi. Çoban kördü ki, qarşıdakı təpədən bir adam boylana-boylana örüşə doğru enir. Yolçu gah gedir, gah da dayanıb ətrafına baxınır. Çoban ayağa qalxıb sürünü közləyən pələng

görkəmli itlərinin qabağında durdu ki, onlar yaxınlaşan yolçunun üstünə getməsinlər. Nigar uzaqdan çobanın bu hərəkətini görüb çox sevindi. Qəribə yolçu onu qarşılamaq üçün qabağa gələn uca boylu, pəhləvan gövdəli çobana yaxınlaşıb salam verdi. Çoban onun salamını aldı. Yolçunun yorğun və ac olduğunu bilcək tez onu öz alaçığına aparıb qonaq elədi. Çobanın alicənablığını və mərhəmətini görən Nigar boynundakı incilərini çıxarıb ona yadigar verdi. Çoban götürmək istəmədi. Nigar yalvarıb xahiş edəndən sonra çoban hədiyyəni qəbul etdi. Nigar bir neçə gün çobana qonaq olub dincəldi və başına gələni qısaca ona söylədi. Çoban çox heyfsilənib onun dərdinə şərik oldu. Sonra bir qoç kəsdi, Nigarın yoluna soyutma ət və çoxlu fətir bişirib hazırladı. Nigar çobandan bir dəst köhnə paltar istədi. Çoban da öz nimdaş paltarını xurçundan çıxarıb ona verdi. Nigar paltarı geyib əlinə də bir ağac aldı. Çobanla vidalaşıb yola düşərkən ona dedi:

— Çoban qardaş, hərçənd ki, dünya ölüm-itim dünyasıdır, ancaq, demək olmaz, bəlkə yenə bir-birimizə rast gəldik. Xahiş edirəm adınızı mənə deyin.

Çoban gülərək:

— Mənim adım Sarı çobandır, – dedi. Onlar vidalaşıb ayrıldılar. Çoban hündür bir təpədən Nigarın dalınca baxırdı. Nəhayət yolçu gözdən itdi.

Şahzadə Cavanşir bir gün də olsun öz mehriban arvadını unuda bilmirdi. Oxtəkinlə Gültəkinin: «Bəs anamız nə vaxt kələcək?»–sualı isə onun dərdini birə on qat artırmışdı. Günlərin birində şahzadə səyahətə çıxmaq fikrinə düşdü. Cəbə sərtibə bir dəstə süvari və bir neçə xidmətçi ilə hazır olmasını əmr etdi. Uşaqlarını da özü ilə götürdü. Onlar yola düşdülər. Şahzadənin tapşırığı ilə onlar arvadının getdiyi yol ilə getməliydilər.

Düşərgələrdə şahzadə ov etməklə öz dərdini dağıtmağa çalışırdı. Gəlib talesiz arvadının son düşərgəsinə yetişdikdə Cəbə sərtibdən əhvalatın necə olduğunu soruşdu. Cəbə şahzadəyə qondarma bir məlumat verərək Nigar xanımın gecə qəfildən necə qaçıb yox olduğunu ona nağıl etdi. Şahzadə inana bilmirdi. O bu yerləri gəzib hər yana diqqətlə baxdı. Düşərgədə vaxtı ilə qurulan çadırların izi qalmışdı. Hər ağac, hər kol şahzadənin gözlərinə başqa

cür görünürdü. Sanki o, bu ağaclardan və kollardan öz sevgili arvadı haqqında xəbər bilmək istəyirdi. Onlar bir neçə gün bu düşərgədə qalandan sonra öz səyahətlərinə davam etdilər.

Bir gün süvarilər uzaqlarda otlayan qoyun sürüsünü görüb şahzadəyə xəbər verdilər. Şahzadə atlı göndərib çobanı yanına çağırtdırdı. Çoban şahzadənin hüzuruna gəlib baş əydi. Şahzadə ondan soruşdu:

— Ay çoban, bu qoyunlar kimindir.

Çoban cavab verib dedi:

— Şahzadə sağ olsun, qoyunlar Muğan xanımındır.

— Bizə qoyun satarsanmı?—deyə şahzadə soruşdu.

— Qoyunlar sizə peşkəşdir. Sürüdə mənim öz çoban haqqım var. Öz qoçlarımdan hansını desəniz, sizin üçün kəsərəm.

— Yox, çoban. Yaxşısı budur, sən bizə hansı qoçu istəyirsən özün kəs, biz pulunu verək.

Çoban razı oldu. Onlar közəl bir bulaq başında düşərgə etdilər. Şahzadə özü uşaqlarını düşürüb onların əlindən tutaraq gəzdirirdi. Bir azdan sonra xidmətçilər yemək hazırladılar. Çoban özü də bir toğlu kəsib, ayrıca çoban bozartması hazırlamışdı. Çobanın bişirdiyi bozartma şahzadəyə daha çox xoş gəldi. Onlar yeyib-içəndən sonra bir xeyli oturub söhbət etdilər. Şahzadə xahiş etdi ki, hər kəs eşitdiyindən, gördüyündən və bildiyindən danışsın. Sarı çoban da qardaşları və yoldaşları ilə birlikdə şahzadənin məclisində oturmuşdular.

Sarı çoban danışmaq üçün şahzadədən icazə istədi. O da icazə verdi. Çoban sözə başlayıb dedi:

— Şahzadə sağ olsun, eşitdiklərimi deməyə cəsarət etmərəm, ancaq izn olsa gördüklərimdən danışa bilərəm. —Şahzadə izn verdi. Sarı çoban nağıl etməyə başladı:

— Günlərin birində yenə həmin bu Boz yalda qoyun otarırdım. Alaçığım da həmin indiki yerindəydi. Sürü otdan doyub yatışırdı. İtlər də sürünün ətrafında yatmışdılar. Bir də gördüm ki, qarşıdakı təpədən bir adam gəlir. O,

sürünü görən kimi dayandı. Yəqin ki, itlərdən ehtiyat edib irəli gəlməyə qorxurdu. Yerimdən qalxıb itlərin qabağında dayandım. Yolçu məni görüb cəsarətləndi və yavaş-yavaş bizə sarı gəlməyə başladı. Görünürdü ki, o çox yorğun və ac idi. Xoş-beş edəndən sonra onu alaçığa apardım. Bir neçə gün burada yeyib-içib dincəldi. Gördüm ki, yolçu ya cavan qızdır, ya da cavan qadındır. Doğrudan da ona ürəyim yandı. Əhvalı çox pərişan idi. Başına gələndən bir az mənə danışdı. Ancaq deyəsən hamısını açıb demədi. Mənim ona göstərdiyim hörmətdənmi, nədənsə kövrəlib ağladı. Düzü onun ağlaması məni çox mütəəssir elədi. Sonra məndən çox razılıq etdi. Gedəndə bir dəst köhnə paltar istədi. Mən də verdim. Nə isə özünü kişi paltarında gizlətməyə çalışırdı. Ancaq buna baxmayaraq nəcib təbiətli və olduqca gözəl bir insan olduğu məlum idi. Mən onu doğma bir bacı kimi qəbul edib eləcə də yola saldım. Vidalaşarkən boynundakı mirvarisini açıb mənə yadigar verdi. Almaq istəmirdim, ancaq zorla qəbul etdirdi. Doğrusu, o gedəndə mən çıxıb təpədən onun dalınca xeyli baxdım. Deyəsən o macəralı və talesiz bir qız, ya da qadın idi.

Şahzadə, çobanın söylədiyi əhvalata həyəçanla qulaq asırkən onun ətrafındakılar sevinc və heyrət içindəydilər. Cəbənin canını qorxu almışdı. Ancaq o, zahirdə özünü sakit göstərməyə çalışırdı. Şahzadə dedi:

— Çoban, görünür sən mərd adamsan. Sən anadan halal süd əmib atandan da halal çörək yemisən. Sənə mən bir təklif ətmək istəyirəm.

Çoban cavab verib dedi:

— Şahzadə sağ olsun, buyurun, sizin mənə nə təklifiniz olsa, mən onu can-başla yerinə yetirməyə hazıram.

— Çoban, mən istəyirəm ki, sən də bizimlə bərabər gedəsən. Bunun üçün sənə nə cəhətdən kömək lazımdırsa mən edə bilərəm.

— Şahzadə sağ olsun, nə kömək lazım olacaq. Biz dörd qardaşıq, üçü qalar, mən də öz sürümü onlara tapşıraram. Əgər sağ-salamat qayıdaram, çox yaxşı olar, qayıtmaram – onda mənim də sürüm qardaşlarıma qalar. Mən sizdən artıq deyiləm ki. Sizə nə olar, qoy mənə də olsun.

Çobanın verdiyi cavab şahzadəni həddən artıq fərəhləndirdi. Ertəsi günü onlar çobanı da götürüb birlikdə yola düşdülər.

Onlar yol getməkdə olsun, biz görək bədbəxt Nigarın başına daha nələr gəldi.

Zahirdə oğlan, batində isə cavan bir qadın olan Nigar yolda Dəmirqapı Dərbəndə gedən bir çarvadar dəstəsinə qoşuldu. Düşərgələrdə qatırların yükünü düşürməkdə, onları suvarıb yemləməkdə çarvadarlara kömək etdiyinə görə çarvadarlar ona az-çox yardım edirdilər. Hər halda o minnətsiz bir tikə çörək qazana bilirdi. Bu minval ilə o çarvadarlarla birlikdə gəlib Dəmirqapı Dərbəndin ucqar karvansaralarından birinə çıxdı. Çarvadarların yükü pambıq, yun və kömür idi. Qoca çarvadar muzdur görkəmli Nigardan xahiş etdi ki, şəhəri gəzib ona alıcı tapsın. O da razı oldu. Nökər paltarı keyinmiş bu qadının şahzadə arvadı Nigkar xanım olduğunu kim bilirdi?! O çayxanaları, dükanları və mehmanxanaları dolaşıb qoça çarvadarın malına müştəri axtarırdı. Çarvadar isə satışdan qazandığı məbləğin hər on manatından bir abbası ona zəhmət haqqı verməliydi. Zirək və səliqəli nökər sahibkarların diqqətini cəlb etdi. Qədim və böyük bir karvansaradakı çayxananın sahibi Xanəli ondan soruşdu:

— Mənə sənin kimi bir üzüyola nökər lazımdır. Əgər mənim yanımda qalıb qulluq etmək istəsən, sənə aylıq maaş kəsərəm.

Nökər başını aşağı salıb öz razılığını bildirdi. Xanəli kişi ona yemək və içməkdən əlavə ayda yeddi manat maaş kəsdi. Nökər etiraz etmədi. Əksinə, o çox sevindi ki, qışda çöldə qalmayacaq, daldalanmağa bir yeri olacaqdır. Xanəli kişi çox xəsis və pulgir adam idi. O, nökərindən tələb edirdi ki, karvansaraya gələn çarvadarları və müştəriləri nə yolla olursa-olsun gərək çayxanaya cəlb etməyə çalışa. Dükanda da nökərin işi az deyildi. O, su daşıyır, çay qoyur, qab-qacağı yuyub təmizləyir və həm də aşpaza kömək edirdi. Ancaq o öz mülayimliyi, nəzakəti və nəcib sifətlərilə çox zaman müştərilərin şübhələnməsinə səbəb olurdu. Onun paltarı və ümumiyyətlə zahiri görkəmilə rəftarı və xasiyyəti arasında da çox böyük fərq olduğu tez gözə çarpırdı. Buna

görə də Nigar xanım mümkün qədər özünü çirkin görkəmə salmağa və doğrudan da nökər kimi görsənməyə səy edirdi. Adamların yanında çox dayanmır, onların diqqətini cəlb etməməyə çalışırdı. Lakin nökər olduğu bu çayxanada o hər gün bir çox qəribə insanlara rast gəlirdi. Qəribə adamların biri də elə onun ağası Xanəli kişi idi. O altmış yaşında, pinti, acgöz və mənasız ömür sürən bir adam idi. Artırdığı pulları torpağa basdırıb saxlayırdı. Övladı yox idi. O, pulu hər şeydən üstün tuturdu. Sirrli nökərin də öz qazandığı pulu saxlamaq üçün ona tapşırması xəsis qocanın çox xoşuna gəlmişdi. Bundan sonra o nökərlə yaxşı rəftar edir və daha onu incitmirdi.

Bir gün Dəmirqapı Dərbəndə küy düşdü ki, bir şahzadə öz məiyyətilə şəhərə gəlir. Karvansara sahibi Püskül Məlik mehmanxanasını döşəyib bəzətdirdi. Bütün sövdəgərlər və mehmanxana sahibləri şahzadəni qarşılamaq üçün hazırlaşdılar. Şəhərin əyanları və zadəganları da küçələri, yolları bəzətdirdilər. Ancaq heç kəs şahzadənin hara düşəcəyini bilmirdi. O, bu barədə ən əvvəl Sarı çoban ilə məsləhətləşdi. Çoban şahzadəyə məsləhət verməyə cürət etmədi. Onda şahzadə ona dedi:

— Sarı çoban, sən namuslu adamsan. Biz şəhərin tamamilə ucqar karvansaralarından birinin mehmanxanasında düşərgə etsək necə olar?

Çoban xeyli fikirləşdikdən sonra dedi:

— Şahzadə sağ olsun, siz məndən yaxşı bilirsiniz. Əlbəttə sizin təklifiniz gözəldir.

Şahzadə yenə dedi:

— Çoban, doğrusu mən camaata yaxın olub şəhərin vəziyyətindən xəbər bilmək istəyirəm. Çünki camaat içində hər cür adam olur. Hər bir əhvalatdan xəbərdar olanlar tapılır. Hər kəs öz başına gələndən və gördüklərindən danışır. Bizim kimi nabələd və qərib adamlar da bilmədiklərini onlardan eşidib öyrənirlər.

Şahzadə baş xidmətçini qabaqca göndərdi ki, gedib karvansara mehmanxanalarından birini tutsun. Püskül Məliyin karvansarası lap ucqar bir yerdəydi. Baş xidmətçi gəlib gördü ki, karvansara çox böyük, mehmanxana da

çox rahatdır. Qayıdıb şahzadəyə xəbər gətirdi. Şahzadə öz məiyyətilə karvansaraya daxil oldu. O saat atlar, dəvələr tövlələrdə yerbəyer edildi. Şahzadə, uşaqlar və baş xidmətçi üçün mehmanxanada ayrıca otaqlar hazırlandı. Cəbə sərtib də süvariləri, keşikçiləri yerləşdirəndən sonra özünə xüsusi otaq tutdu. Şahzadə Sarı çobanı öz qonşulu]undakı otaqlardan birində yerləşdirmək üçün əmr verdi. Hamı yerbəyer ediləndən sonra Püşkül Məlik özü şahzadənin hüzuruna gəlib təzim etdi. Şahzadənin sadə və mülayim rəftarını gördükdə təəccübləndi. Fikir etdi ki, bu necə şahzadədir? Nəhayət axşam yeməyi tədarükünə başlandı. Çayçı Xanəli kişinin əli-ayağı yerə dəymirdi. O, yeni müştərilərin gəlməsinə çox şad idi. Çay qoyub yaxşı xörək hazırlamışdı. Nökərlərinə tapşırdı ki, üst-başlarını düzəltsinlər, bəlkə şahzadənin adamlarına xörək aparmalı oldular. Nökər çox yorğun idi. O bir tərəfdən su, kömür və odun daşıyır, o biri tərəfdən də müştərilərə çay verirdi. Heyhat! Heç kəs onun ürəyini sıxan böyük dərddən xəbərdar deyildi. Heç kəs bilmirdi ki, o nələr çəkir. Göz bəbəyi kimi sevdiyi bir cüt balası yadına düşəndə başından tüstü, duman qalxırdı. Gizlində çəkdiyi ahlardan sinəsi qubar bağlamışdı. Onun dərdi bir idimi? Sinəsinə çəkilən çal-çarpaz dağlar onu bir yumaq kimi bükmüşdü. Dərdini heç kimə deyə bilmirdi. Hər kəs onun dərdini bilsəydi, ondakı səbrə və mətanətə heyran qalardı.

Üç gün, üç gecə istirahət etdikdən sonra şahzadə Püskül Məliyin mehmanxanasında böyük bir ziyafət məclisi qurdu. Mehmanxana qırx otaqdan ibarətdi. Otaqların ən böyüyünü döşəyib bəzədilər. Burada Çindən, Hindistandan, İrandan, Bizansdan, Şirvandan, xülasə, bir çox məmləkətlərdən gətirilmiş ziynət şeyləri var idi. Püskül Məlik şahzadə üçün elə bir süfrə düzəltdi ki, orada şərab sürahiləri qızıldan, qədəhlərsə sədəfdən idi. Hamı istədiyi qədər yeyib-içirdi. Yalnız şahzadə ilə çoban iştahla yemirdilər. Onlar məclisə gələn qonaqlara göz qoyurdular. Şahzadə məclisin başında, çoban isə ayaq tərəfdə oturmuşdu. Burada Dəmirqapı Dərbənd əhalisindən də hər cür adam var idi. Yemək-içmək qurtarandan sonra şahzadə Püskül Məlikdən xahiş etdi ki, aşıq tapıb dastan söylətsin. Aşıq hazır oldu. Ancaq bir yox, beş oldu,

Şahzadə bir tapmaca dedi. Bu tapmacanı aşıqların dördü tapa bilmədi, biri tapdı. Tapan aşıq dastan deməli oldu. Aşıq dastan söylədi, məclis dinlədi. Şahzadə, Cəbə sərtib, Sarı çoban, sövdəgər Dədə Sarban, onun oğlu Səncər və Təkə qazi də buradaydı. Bunlardan əlavə çayxanaçı Xanəli kişi və onun sirrli nökəri də bir bucaqda oturub aşığa qulaq asırdılar. Aşıq hərdənbir dastanın arasını kəsib məclisdəkiləri əyləndirmək üçün qaravəlli deyirdi. Camaat da gülüşürdü. Ancaq şahzadə ilə Sarı çoban, sirrli nökərlə Dədə Sarban və bir də Səncər gülmürdülər. Dinləyənlərdən bəziləri də yavaş-yavaş mürgüləməyə başlayırdı. Sirrli nökər məclisə göz gəzdirdikcə dostlarını və düşmənlərini tanıyır və həqiqətdən xəbərdar olmayan qafillərə yazığı gəlirdi. Ancaq heç kəsin ona yazığı gəlmirdi. Birdən onun ürəyi coşdu, o, ov görmüş tərlan kimi yerindən sıçradı. Tamahkar və acgöz ağasını kənara çəkib dedi:

— Ey Xanəli əmi, gəlsənə sənə bir pul yeri göstərəm: xəsis çayxanaçı gözlərini döyə-döyə nökərə baxıb soruşdu:

— Necə? Pul! Hardadır o pul? De görüm!

Sirrli nökər gülümsünüb cavab verdi:

— Məndə!

— Hanı, ver görüm!

— Mən deyənə qulaq assan verərəm.

Xəsis qocanın ağzının suyu axmağa başladı.

— Asım da. Bu saat asım. De görüm nə deyirsən? De, tez de!

— Ey əmi, axı mən də bir az aşıqlıq bilirəm. O aşıqların birinin sazını alıb mənə ver, mən də bir balaca dastan deyim. Ancaq nə qədər pul yığılsa hamısı sənin olsun.

Qoca sevindi. Lakin başa düşdü ki, şahzadənin xoşuna gəlməsə onun üçün pis olar. Ona görə dedi:

— A gədə, hərgah ağıllı-başlı bir dastan deyə bilərsənsə aşıqların birinin sazını alım gətirim, oxu. Yox, əgər bizi rusvay etmək fikrin varsa, onda yaxşısı budur qıçlarını sındırıb otur öz yerində.

Nökər dedi:

— Pis dastan desəm, onda qoy şahzadə mənim boynumu vurdursun.

Çayxanaçı razı oldu. Tez gedib bir saz gətirdi. Sonra gəlib Püskül Məlikə xəbər verdi ki, macəralı bir dastan demək istəyən aşıq vardır. İcazə versəniz, oxuyar.

Püskül Məlik gördü ki, məclisdəkilərin çoxunu mürgü basır, ona görə məclisi canlandırmaq üçün bu təklifə razı oldu. Nökərə babat bir çuxa və papaq tapıb geydirdilər. Arıq, incə və qəşəng görkəmli, sirrli aşıq əlində saz məclisə daxil olaraq hamıya salam verib təzim etdikdən sonra dedi:

— Bağışlayın, hörmətli ağalar. Mən görürəm ki, bizim ustad aşığın söylədiyi dastan sizə yuxu gətirir. İzn verin sizin yuxunuzu dağıdım. Ustad aşıq da bizi bağışlasın. Onda təqsir yoxdur, dastan var insanı yatırdar, dastan da var ki, yatanları ayıldar. — Bunu deyib o, sazı sinəsinə basaraq çalmağa başladı. Sazın qəribə iniltisindənmi ya sirrli aşığın özünün qəribə görkəmindənmi, xülasə, nədənsə o saat bütün məclisdəkilərin diqqəti ona cəlb olundu. O belə başladı:

Ər odur ki, haqq yolundan qaçmya,

Doğru sözü doğru işdə araya.

Sonra öz dastanını söyləməyə davam etdi və Dəmirqapı Dərbəndin gözəlliyini şirin bir dil ilə təsvir edib sövdəgər Dədə Sarbanın kim olduğunu nağrıl etməyə keçdi. Bütün əhvalatı tamamilə söylədikdən sonra nəhayət gəlib onun ziyarətə getməsinə və qızının başına gələn əhvalata yetişdikdə məclis hərəkətə gəldi. Çayxanaçı nökərinin gözlənilməyən müvəffəqiyyətini gördükdə fərəhindən bilmirdi neyləsin. Burada sirrli aşıq fasilə verib dedi:

— Ağalar, başınızı ağrıtmıram ki?

Məclisdən səslər ucaldı:

— Yox, yox, söylə aşıq, söylə, dalısını söylə!

Hamıdan çox həyəcanla dillənən sövdəkər Dədə Sarban və onun oğlu Səncər idi. Bu halda gözləri pişik gözləri kimi parıldayan xəsis çayxanaçı fürsətdən istifadə edərək bir sini gətirib ortalığa qoydu və dedi:

— Ağalar! Bu cavan aşığa bir balaca əl tutmaq pis olmazdı. Hər kəs bu siniyə öz adına layiq bir şey atsın.

Sirrli aşıq utanaraq acıqlı-acıqlı gözünün ucu ilə qocaya baxdı. Hər tərəfdən atılan gümüş və qızıl pullar cinkilti ilə siniyə düşürdü.

Çox çəkmədi ki, sinidə pul təpə kimi qalandı. Qoca çayxanaçı sevindiyindən bilmirdi neyləsin. Hələ ömründə o, bu qədər pul görməmişdi. Bu sirrli nökərin haradan gəlib onun uğuruna çıxdığını heç özü də başa düşə bilmirdi. Sirrli aşıq yenə sazı bağrına basdı. Bu zaman Təkə qazi bayıra çıxmaq istədikdə şahzadə Sarı çobana əmr elədi ki, cavan aşığın söylədiyi dastan qurtarmamış məclisdən bir kimsəni bayıra buraxmaq olmaz. Çoban çomağını götürüb qapıda dayandı. Şahzadə üzünü aşığa tutub dedi:

— Aşıq, sən davam et. Dastanın çox maraqlıdır. Axıra kimi qulaq asacayıq!

Aşıq sözünə davam etdi:

Ərənlər ər yolunda ər tək gərək,
Meydanda ər kişi nər tək gərək...

Axı dədə aşıqların sözlərini yada salmasaq olmaz. Deyərlər ki, igid hünərli, aşıq isə ilqarlı olsa yaxşıdır. Aşıq var ağlına gələndən, aşıq da var ki, başına gələndən danışar. Ağalar, indi mən deyim, siz də yozun. — Burada sirrli aşıq Nigar qızın əhvalatının dalısını təfsilatı ilə söyləyərək onun qardaşı Səncər tərəfindən öldürülməyib yalnız azdırıldığı yerə yetişdikdə sövdəgər Dədə Sarbanın huşu başından çıxdı. Tez onun üzünə su vurub ayıltdılar. Yenə şahzadə, çobana əmr etdi ki, məclisi sakit eləsin və aşığa imkan versinlər, dastanını axıra kimi söyləsin. Çoban qara, qaytan bığlarını eşib pələng kimi məclisə tərəf boylandı. O saat hamı sakit oldu. Aşıq sözünə davam etdi. Söyləyə-söyləyə əhvalatın Cəbə sərtib ilə əlaqədar olan yerinə yetişdikdə Cəbə aradan sivişmək istədi. Çoban yenə qışqırıb dedi:

Hər kəs şahzadənin əmrini pozsa, məclisdən yarımçıq çıxsa bu əlimdəki çomaqla onu xub dincəldəcəyəm.

Cəbə o saat yerə çökdü. Qəzəbdən şahzadənin gözləri qızarmışdı. Məclisdəki həyəcanı görən xəsis çayxanaçı sinini götürüb aradan çıxdı. O öz-özünə deyirdi: «Əşi, bu nə başı bəlalı nökər imiş! Onun nağılı da başqa ozanların nağılına bənzəmir. Mən elə güman edirdim ki, o heç bir şey anlamır. Ancaq görün sinəsi nə qədər dolu imiş!»

Məclis sakitləşdi və sirrli aşıq dastanına davam etdi. İndi o Nigarın Sarı çobana rast gəlməsindən və çobanın Nigarı qardaş kimi qarşılayaraq ona hörmət edib, yenə qardaş kimi yola salmasından və Nigarın öz mirvarisini Sarı çobana yadigar verməsindən danışırdı. Elə burada Sarı çoban tab gətirməyib tez boz çuxasının qoltuğundan həmin mirvarini çıxardıb məclisdəkilərə göstərərək dedi:

— Eşq olsun belə aşığa! Dediklərinin hamısı doğrudur; həmin mirvari bax budur. Sarı çoban da mən özüməm!

Hamı heyrət etdi. Məclisdəkilər iki yerə bölünürdü. Bir qisminin, başda şahzadə olmaqla fərəhdən ürəkləri çırpınırdı. Onlar dastanın necə qurtaracağını səbrsizliklə gözləyirdilər. Az bir qismi isə başda Təkə qazi və Cəbə sərtib olmaqla qorxudan tir-tir əsməyə başlamışdılar.

Doğruluq axtaranlar axırda şad olarlar,

Yalançı, böhtançılar məyus, və xar olarlar.

Birdən şahzadə ayağa qalxıb dedi:

Gözəl aşıq, sənin söylədiyin dastanda böyük həqiqət vardır. Bu dastan deyil, qəmli bir macəradır. Ancaq, aşıq, sən gəl, burada oxu atıb kamanı gizlətmə. And olsun göylərə ki, sən adi aşıqlara bənzəmirsən. Mənə elə gəlir ki, sən sirrli bir aşıqsan. Dastanı tamamla və de görək bədbəxt Nigarın macərası axırda necə qurtarır. İnan ki, mətləbi yarımçıq qoysan, səndən əl çəkdi yoxdur.

Şahzadə sözünü bitirməmiş sirrli aşıq sazı yavaşca yerə qoyub başından papağını götürdü və altdakı yaylığı açan kimi gözəl saçları çiyinlərinə töküldü. Nigar başını aşağı salıb dayandı. Bir dəqiqənin içində məclisdəkilər



bir-birlərinə dəydilər. Şahzadə tez qılıncını sıyırıb qapını kəsdi. Çoban və şahzadə sədaqətli xidmətçilərlə birlikdə xainləri: Təkə qazini, onun oğlunu, Cəbə sərtibi bir-birlərinə sarıyıb Xəzərin hündür qayalarının birisindən suya atdılar. Sövdəgər Dədə Sarban isə öz yanlış əməlindən peşman olaraq zavallı qızını bağrına basıb ağladı. Nigarın anası və qardaşı da gəldilər. Onlar da Nigarı qucaqlayıb sevindiklərindən ağladılar. Şahzadanin baş xidmətçisi Oxtəkinlə Gültəkini Nigarın görüşünə gətirdikdə, hamı bu mənzərəyə sakit baxa bilməyib ağladı. Haqq dörə keçdi, haqsızlıqsa yerə keçdi. Qırx gün, qırx gecə şadlıq edəndən sonra şahzada ilə Nigar xanım yenidən xoşbəxt ömür sürməyə başladılar. Sarı çoban da şahzadənin həmişəlik məhəbbətini qazandı.



# ƏKİZ QOŞAR VƏ SEHRLİ AT

Biri var idi, biri yox idi, qədim zamanlarda Ucar adlı bir xan var idi. Onun da Ülkər adlı gözəl bir arvadı var idi. Onların varı-dövləti başlarından aşmışdı, ancaq övladları olmurdu. Ucar xan bütün biliciləri, təbibləri və rəmmalları yığıb əlac və tədbir axtarmalarını onlara əmr ətmişdisə də heç bir nəticə hasil olmamışdı. Axırda onlar övladdan tamamilə ümidlərini kəsib oturmuşdular.



Günlərin birində bir dərviş qolunda kəşkul, əlində təbərzin oxuya-oxuya gəlib Ülkər xanımın eyvanının qabağında dayandı. Qapıya gələn dilənçilərə həmişə xanım özü pay verib yola salardı. Bu dəfə də xanım dərvişin səsini eşidib eyvana çıxdı və öz qulluqçusuna əmr elədi ki, ona pay verib yola salsın. Qulluqçu gətirib dərvişə pay vermək istədikdə dərviş onun verdiyi payı qəbul etməyərək oxumağa davam etdi. Ülkər xanım bunu görüb təəccübləndi və dedi:

— Ay dərviş, verilən payı niyə qəbul etmirsən? Oğlumuz yox, qızımız yox ki, sənə yaxşı hədiyyə verək. Dua elə övladımız olsun, bir də gələndə səni yaxşı yola salarıq.

Çallanmış saçları çiyinlərinə tökülmüş, boğazının damarları üfürülüb şişmiş dərviş nüfuzediçi bir nəzərlə xanıma baxıb dedi:

— Qorxuram ki, övladınız olandan sonra daha heç pay verməyəsiniz.

Xanım dedi:

— Yox, baba dərviş, yanılırsan. Qoy övladımız olsun, onda görərsən səni razı salarıq ya yox.

Dərviş əlini çibinə salıb oradan qıpqırmızı bir alma çıxartdı və onu xanıma verib dedi:

— Xanım, bu almanın yarısını kəsib xana verərsiniz, yarısını da özünüz yeyərsiniz. Vaxt tamam olanda əkiz doğacaqsınız. Onların biri qız, biri də oğlan olacaqdır. Qız sizin qismətiniz, oqlan isə mənim qismətimdir. On dəfə

dörd mövsüm gəlib keçəcəkdir, yəni on dəfə ağaclar yarpaqlarını tökəcək, maral daldalanmağa yer axtaracaq, leylək də bala uçurdacaqdır. Oğlan on yaşına yetişəndə mən öz qismətimi aparmaq üçün yenə bu qapıya gələcəyəm. Onda siz oğlanı mənə verməsəniz, mən verdiyim almanı geri istəyəcəyəm. Axırda siz çarəsiz qalıb oğlanı mənə verməyə razı olacaqsınız. Çünki siz sözünüzə xilaf çıxsanız, mən uşaqların ikisini də yenə bir almaya döndərib apararam. İndi deyin görüm bu şərti qəbul edirsiniz ya yox? Ülkər xanım bir tərəfdən hədsiz dərəcədz fərəhləndi ki, tezliklə övlad sahibi olacaq, digər tərəfdən də çox qəmgin oldu ki, övladının birini dərvişə verməli olacaqdır. Xanım əri Ucar xanla məsləhətləşəndən sonra əlacsız qalaraq dərvişin verdiyi almanı və qoyduğu şərti qəbul etdi. Dərviş çıxıb getdi.

Doqquz ay, doqquz gün, doqquz saat keçəndən sonra Ülkər xanım bir cüt əkiz uşaq doğdu. Onların biri qız, biri də oğlan idi. Uşaqlar böyüdükcə onların gözəlliyinə hamı heyran olurdu. Oğlanın adını Qoşar, qızın adını Gülər qoydular.



On ildən sonra qapıda yenə həmin dərvişin səsi eşidildi. Sehrli almanın sahibi gəlmişdi. Ucar xanla Ülkər xanım dərvişə nə qədər qızıl-gümüş və daş-qaş təklif etdilərsə o qəbul etmədi.

Dərviş inadla oğlanı tələb etdi. Yazıq valideyn uşaqların ikisindən də məhrum olmamaq üçün çarəsiz qalıb Qoşarı dərvişə verməli oldular. Ata ilə ana hərəsi onu bir dəfə bağrına basdı, öz istəkli oğullarını yola salarkən gözlərinin yaşını sel kimi axıtdılar. Dərviş Qoşarın əlindən tutub həyətdən çıxdı. Ucar xanla Ülkər xanım isə onların dalınca baxa-baxa qaldılar.

Qoşar öz taleyinə qatlaşan adamlar kimi dərvişin yanınca duşub dinməz-söyləməz gedirdi. Onlar bir xeyli yol gedəndən sonra gəlib şəhərin kənarında bir mağaraya yetişdilər. Mağaranın içinə dar bir yol gedirdi. Dərviş

Qoşarın əlini öz əlindən buraxmayıb həmin yola girdi. Qaranlıqda göz-gözü görmürdü. Burada Qoşar qorxusundan ağlamaq istədi. Dərviş üç dəfə çırtıqla onun alnına vurub dedi:

— Qorxu-qorxu gətirər, sus, qorxma!

Qoşar o saat susdu və daha qorxmadı. Onlar gəlib yeraltı böyük bir tövləyəə çıxdılar. Burada axura bir- biri ilə yanaşı heyvərə bir qaban ilə gözəl bir at bağlanmışdı. Qabanın qabağına kişmiş, atın qabağına isə sür-sümük tökmüşdülər. Dərviş heyvanları Qoşara göstərib dedi:

— Mən gələnə kimi bunlara göz olarsan. Qabanın qabağından kişmiş qurtaranda ona kişmiş tökərsən, atın qabağından sür-sümük qurtaranda onun qabağına sür-sümük tökərsən.

Dərviş bunu deyib tövlənin o başındakı qapını açdı, anbarı Qoşara göstərdi. Uşaq gördu ki, bura böyük bir anbardır və içində bir tərəfdən kişmiş, digər tərəfdən də sür-sümük tığları vurulmuşdur. Dərviş çıxıb getdi. Qoşar tək qaldı. Əvvəl onun ürəyinə yenə qorxu çökməyə başladı. Bir bucağa qısılıb düşdüyü bu anlaşılmaz vəziyyətdən necə xilas olmaq haqqında fikirləşdi. Ürəyi tab gətirmirdi. Kövrəlib ağlamaq istədikdə yenə dərvişin sözü yadına düşdü. Axı o demişdi ki, «qorxu-qorxu gətirər». Qoşar gördu ki, doğrudan da qorxmaq və ağlamaq ona heç bir kömək və əlac edə bilməyəcəkdir. Özünə toxtaqlıq verib düşünməyə başladı. Birdən fikir verib gördü ki, at tez-tez ona tərəf boylanaraq ah çəkir. Yavaşca yerindən qalxıb atın yanına gəldi. At o saat başını ona tərəf uzadaraq, aşağı salladı. Qoşar atın gözlərinin üstünü sığalladı və gördü ki, at qabağındakı sür-sümüyü çox çətinliklə yeyir. Gedib anbardakı kişmiş tırından yarım xəlbir kişmiş gətirib atın qabağına tökdü. At kişmişi ləzzətlə yeməyə başladı və yedikcə tez-tez dönub Qoşara elə baxırdı ki, guya ona təşəkkür etmək istəyir. Beləliklə uşaq ilə atın arasında dostluq yarandı. Bunu hiss edən qaban ayağını yerə döyərək xortuldaya-xortuldaya eybəcər burnu ilə axuru eşələməyə başladı. Qabanın hərəkəti Qoşara xoş gəlmədi. O gedib anbardan bir xəlbir sür-sümük gətirdi, onun qabağına tökdü. Qaban daha da bərk xortuldadı. At başını Qoşara tərəf uzadıb onun qulağına nə isə demək istəyirdi.

Qoşar yenə atın başını qucaqlayıb sığalladı. At dodaqlarını onun qulağına yaxınlaşdırıb yavaşça pıçıldadı:

— Məndən qorxma. Mən sənə dostam. Ancaq buradan tez qaçmaq lazımdır. Dərviş gəlib sənin mənə kişmiş, qabana sür-sümük verdiyini görsə onda səni də mənim günümə salar. Fürsəti fövtə vermək olmaz. Tez ol, əvvəl məni axurdan aç. Anbardan bir az duz, bir bıçaq, bir qab su və bir ovuc da darı götür, sonra buradan çıxaq, məni minib sür gedək.

Atın insan kimi danışmasını ilk dəfə görən Qoşarın canına titrətmə gəldi. Lakin dərvişin: «Qorxu- qorxu gətirər» – sözü onun yadına düşəndə o qorxunu dəf edib tez atın dediklərinə əməl etdi. Onlar mağaradan çıxdılar. Qoşar atı mindi. Xeyli yol getmişdilər ki, bir də gördülər dərviş qabanın belində səyirtmə gəlir. Qoşar özünü itirdi və əli-ayağı əsməyə başladı. Tez dərvişin sözünü xatırladı. Atın yalından möhkəm yapışdı. At dedi:

— Qoşar, elə ki gördün yaxınlaşırlar tez darını onların qabağına səp.

Qoşar geri dönüb baxanda gördü ki, dərviş qabanın belində dişlərini qıcırda-qıcırda lap yaxınlaşmışdır. O tez darını onların qabağına səpdi. O saat böyük bir darı zəmisi əmələ gəldi. Qabanın başı darını otlamağa qarışdı. Dərviş nə qədər vurdusa qaban yerindən tərpənmədi. Qoşarla at onlardan xeyli uzaqlaşdılar. Qaban darını otlayıb qurtaran kimi yenə onların dalınca tərpəndi. Qoşar gördü ki, dərvişlə qaban yenə yaxınlaşmaqdadır. At dedi:

— İndi bıçağı tulla.

Qoşar bıçağı qabana tərəf tulladı. Hər yanda iti bıçaq bitdi. Bıçaqlar qabanın dırnaqlarını doğradı. Qoşar ilə at yenə xeyli yol getdilər. Bir azdan sonra Qoşar geri dönüb baxanda gördü ki, dərviş qabanın üstündə dişlərini qıcıda-qıcıda gəlir. Qoşar atdan soruşdu ki, indi neyləmək lazımdır? At ona cavab verib dedi:

— İndi duzu səp.

Qoşar duzu ovuclayıb onlara tərəf səpdi. Hər yan şoranlıq oldu. Qabanın yaralanmış dırnaqlarına duz dolub acışdırdığından o yavaşıdı. Qoşarla at yenə

bir qədər yol grtdilər. Az getdilər, üz getdilər bir də gördülər ki, dərvişlə qaban lap yaxınlaşmışdır. Qoşar tez atdan soruşdu.

— Onlar bizə çatırlar, neyləyək?

At cavab verdi:

— Özünü itirmə, götürüdüyün suyu onlara tərəf səp.

Qoşar geri dönüb suyu onların qabağına səpdi. O saat onların qabağında böyük bir göl əmələ gəldi. Su qabanın belinə çıxmağa başladı. Dərviş qabanı nə qədər dəhmərlədisə, qaban sudan çıxa bilmədi. Getdikcə su qabana boy vermirdi. İndi Qoşarla at dayanıb nəfəs alaraq onlara tamaşa edirdilər. Bir az çəkmədi ki, dərvişlə qaban suya qərq oldular.

Fəlakətdən xilas olandan sonra at Qoşara dedi:

— İndi məndən nə istəyirsən istə.

Qoşar atın üzünə məlul-məlul baxıb soruşdu:

— Yoxsa məni burada tək qoyub getmək istəyirsən?

— Yox,—deyə at cavab verdi.—Səni tək qoymağımdan qorxma. Nə vaxt istəsən, yanında hazır ola bilərəm. Mənim yalımdan bir neçə tük qoparıb saxla, çətinliyə düşəndə onun birisini yandırarsan, onda mən o saat yanında hazır olaram.

Qoşar gözləri yaşlı və könülsüz bir halda vəfalı dostunun yalından bir neçə tük qoparıb qoynuna qoydu. Onlar ayrıldılar. Qoşar bu ayrılıqdan çox mütəəssir olub yaxında görünən bir dağın ətəyinə doğru getdi. Oradakı bulaqdan su içib əl-üzünü yuduqdan sonra bir yer tapıb daldalandı. Fikirdən başı bərk aqrıyırdı. Axırda tamamilə yorulub dərin yuxuya getdi.

Səhər olcaq Qoşar gözlərini açıb gördü ki, günəş aləmi nura qərq etmişdir. O, gərnəşib yerindən qalxdı. Elə bil ki, anadan yenicə doğulmuşdu. Heç bir yorğunluq və ağırlıq hiss etmirdi, yaxşı da iştahı vardı.

Ətrafına boylandı: göz işlədikcə hər yan dar, təpə və çöl idi. Uzaqda böyük bir çinar ağacı gördü. Yavaş-yavaş həmin çinara doğru getdi. Ağaca yaxınlaşanda gördu ki, yerdə bir insan ölüsü vardır, qurd-quş onun ətini tər-təmiz yeyib yalnız quru sümükləri qalmışdır. Qoşar sümüklərin yanından

bir kaman, bir neçə də dəmir uçlu ox tapdı. Kamanı götürüb yoxladı. O tamamilə saz idi. Oxları da götürüb kəmərinə sancdı. Çinar o qədər böyük idi ki, onun kölgəsində bir neçə qoyun sürüsü dincələ bilərdi. Ağacın içi oyuq idi.



Burada yeddi-səkkiz adam rahat yerləşərdi. Birdən Qoşarın burnuna qovrulmuş ot iyi gəldi. O tamahsılanaraq udqundu. «Bu xoş iy haradan gəlir?»— deyə düşündü. Oyuğa girib oranı diqqətlə axtaranda gördü ki, divarın içində rəf kimi düzəldilmiş taxçada qaxac edilmiş xeyli ət vardır. Götürüb baxdı: «Yəqin ki, ceyran ətidir?!»—deyə fikirləşdi. Qaxacdan bir parça qoparıb ağzına qoydu və təmsindi. Çox ləzzətliydi. Bu müəmmalı yerdən bir neçə parça ceyran qaxacı götürdü, bir tərəfdə oturub yeməyə başladı. Doyunca yedikdən sonra yaxındakı bulaqdan su içməyə getdi.



Yenicə əyilib su içirdi ki, bir də həmin çinarın başındakı yuvada körpə quşların qışqırtısını eşitdi. Onlar Simurq quşunun balaları idi. Qoşar su içib tez çinarın yanına qayıdanda gördü ki, dəhşətli bir ilan çinarın çevdəsilə yuxarı dırmaşır. Simurq quşunun balaları isə ilanın yaxınlaşdığını hiss edib qışqırırlar. O özünü itirmədi, tez oxun birini kəmərindən çıxarıb kamana qoydu və ilanı nişan aldı. Ox kamandan çıxan kimi ilanın başı çinarın gövdəsinə tikildi. Əzazil heyvan aqacdan asılı qaldı. Qoşar öz hünərinə sevindi. İlandan o qədər qan getdi ki, axırda o, haldan düşdü. Yalnız quyruğu tərpənirdi. Deyirlər: «İlan ulduz görməsə, can verməz», yəni üstündən bir gecə keçəndən sonra ölər.

Qoşar çinarın kölgəsində uzanıb yatdı. Bu zaman bulutların bərabərində uçan Simurq quşu caynağında balalarına bir ceyran ovlayıb gətirirdi. O, çinarın başına bir neçə dəfə fırlandıqdan sonra öz yuvasına endi, gətirdiyi yemi balalarına verib havaya qalxdı. Bir az keçməmişdi ki, Simurq quşu caynağında yekə bir

daş çinarın kölgəsində yatan Qoşarın başı üzərində fırlanmağa başladı. Bunu görən kimi onun balaları qışqırıq qopartdılar. Analarına bildirdilər ki, aşağıda yatan oğlan onları ilandan xilas etmişdir. Bunu başa düşən Simurq quşu gətirdiyi daşı kənara tullayıb birbaş həmin yerdə yatan igid yolçunun yanına endi və qanadlarını onun üzərinə açıb kölgə saldı.



Qoşar şirin yuxudan ayıldıqda mat qaldı. Simurq quşu onu sakit edib dedi:

— İgid oğlan, qorxma. Nə diləyin varsa məndən istə, yerinə yetirim. Sən mənim körpə balalarımı ilanın ağzından saldırıbsan. Mən səndən çox razıyam.

Qoşar dik qalxıb oturdu. Əvvəlcə Simurq quşundan nə istəyəcəyini o dəqiqə fikrinə gətirə bilmədi. Özünə bir qədər toxtaqlıq verəndən sonra ona belə dedi:

— Məni vətənimə yetirsən, daha özgə bir diləyim olmaz. Simurq quşu ona cavab verib dedi:

— Onda hazırlaş. Həmin çinarın oyuğundan çoxlu qaxac ət götür, orada tuluq var, onu da su ilə doldur. Sonra arxama min, qalxaq buludlar olan yerə, oradan uça-uça səni aparım mavi dənizin o tayına.

Qoşar Simurq quşunun dediklərinin hamısını etdi. Sonra da onun dalına mindi; quş onu havaya qaldırdı.

İlk anda Qoşarın gözləri qaralmağa və ürəyi uçunmağa başladı. O ömründə hələ bu qədər yüksəkliyə qalxmamışdı. Göylərin seyrək və təmiz havasında o tez-tez nəfəs alırdı. Simurq quşu boğazını uzadaraq qarşısına çıxan sıx buludları yarıb keçirdi. Qoşar yavaş-yavaş öz həyəcanını dəf edərək artıq uçmaqdan zövq almağa başlayırdı. O, əlini atıb buludları tutmaq istərkən onlar züvüldəyib onun əlindən çıxırdı. Ulduzlar gah onlardan aşağıda, gah da onların sağında və solunda qalırdı. Qoşara elə gəlirdi ki, Simurq quşu getdikcə daha da yüksəklərə qalxır. Başını qar və duman bürümüş dağların

üzərindən ötəndə oğlan üşüdüyünü hiss edirdi. Yuxarıdan sıldırım qayalara, dərin uçurumlara və qalın meşələrə baxdıqca gözləri qaralırdı. Hər dəfə Simurq quşu «qa-aa!» edəndə o, qaxaçdan bir parça onun ağzına atırdı. «qu-uu!» edəndə isə Qoşar ona su verirdi. Beləliklə onlar hərdənbir ən yüksək dağların zirvəsində dinclərini ala-ala bir həftə yol gedəndən sonra gəlib mavi dənizin sahilinə yetişdilər. Simurq quşu sahilə enib Qoşara dedi:

— Düş yeri görüm!

Qoşar Simurq quşunun belindən yerə endi, lakin yeriyə bilmədi. Quş soruşdu:

— Niyə yeriyə bilmirsən? Məndən gizlətmə, doğrusunu de!

Qoşar cavab verdi:

— Ona görə yeriyə bilmirəm ki, axırıncı dəfə sən «qa-aa!» deyib məndən yemək istədikdə qaxaç qurtarmışdı, mən çarəsiz qalaraq öz budumun ətindən kəsib sənə verdim.

Simurq quşu gülüb dedi:

— Mən də insan ətinin dadını hiss etdiyimə görə onu yeməyib ordumda saxlamışam.

Bunu deyib o kəsilmiş əti öz yerinə qoydu, ağzının suyu ilə yapışdırdı. Qoşar dərhal yenə əvvəlki kimi sappasağ olub yeridi. Sonra quş ona dedi:

— Mən ömrümdə hələ bu dənizin o tayına uçmamışam. Səni buraya qədər gətirdim. İndi buradan sənin vətəninə az qalır. Bu yolu daha özün gedə bilərsən.

Birdən Qoşarın yadına düşdü ki, axı o sehrli atın yalından tük qoparıb saxlamışdı. Quşdan razılıq edib onunla vidalaşandan sonra qoltuğundan sehrli atın tükünü çıxartdı. Çaxmağı daşa vurub tükü yandırdı. O saat sehrli at kişnəyə-kişnəyə hazır oldu. Qoşar atın səsini eşidib, özünü görən kimi sevindiyindən onun boynunu qucaqladı, gözlərindən öpdü. Ayrı düşdükləri zamandan bəri hər kəs öz başına gələni nağıl etdi. Qoşar onu nə üçün çağırdığını bildirəndən sonra dedi:



Mən əvvəlcə evimizdən, atamdan, anamdan və bacımdan xəbər bilmək istəyirəm. Bunu necə bilmək olar?

At cavab verib dedi:

— Bu, çox asan bir işdir. Sən burada oturub dincələnə kimi mən evinizdən sənə xəbər gətirərəm. Bunu eşidən kimi Qoşar şadlığından yenə atın boynuna sarılıb onu mehriban-mehriban oxşadı.

Bir dəqiqədən sonra at gözdən itdi. Qoşar fikirli halda sahildəki ağaclığa tərəf getdi.

Dənizin kənarında uzunboğaz, qar kimi ağappaq əcaib görkəmli yekə quşlar gəzişirdilər. Onların səsi quş səsinə deyil, dayça səsinə bənzəyirdi. Qoşar onlara tərəf getmək istədikdə onlar suya girib gizləndilər. Bu qəribə quşların ayaqları, demək olar ki, at ayaqlarından da uzun idi. Onlar guya Qoşarı hirsləndirmək istəyir, sudan başlarını çıxarıb ona tamaşa edirdilər. Hərəkətlərindən görünürdü ki, onlar çox sayıq və hiyləgər heyvanlardır. Daima ətrafa baxırdılar. Yəqin ki, onlar düşməndən çox ehtiyat edirdilər.

Qoşar böyük bir daşa söykənib oturdu. Elə bu əsnada quşlar birdən qulun kimi kişnəməyə başladılar. Qoşar baxıb gördü ki, yırtıcı bir vaşaq sahilə doğru yortmaqdadır. O özünü itirməyib cəld kamanı götürdü və vaşağı nişan alaraq kamanı dartdı. Kamandan çıxan ox qurd kimi yortan vaşağın başına sancıldı. Yırtıcı heyvan dəhşətli bir bağırtı ilə yerə yıxıldı. Qoşar oxu sərrast atdığına görə çox şad oldu. Xeyli vaxtdan bəri mübarizə ilə keçən həyatı onu ruhən cürətli və bədəncə qüvvətli, möhkəm etmişdi. Onun lazımi qədər ox ehtiyatı olsaydı, demək olardı ki, tək başına yırtıcı heyvanlarla mübarizə edə bilərdi. Suda qərq olan dərvişin dediyi: «Qorxma, qorxu-qorxu gətirər» sözü hələ də onun yadından çıxmamışdı. O indi heç bir şeydən qorxmurdu. Yırtıcı vaşağın dərisini boğazından çıxardıb çevirdikdən sonra haça bir ağaca tərs üzünü geydirdi. Qoşarın hərəkətini izləyən əcaib quşlardan biri sudan çıxaraq ağzında nə isə gətirib sahilə tulladı. Qoşar gedib baxanda gördü ki, bu, içi inci dənələrilə dolu olan bir sədəfdir. Demək quşlar öz düşmənlərini öldürən

Qoşara təşəkkür etmək üçün bunu ona hədiyyə vermişdilər. Qoşar qiymətli hədiyyədən çox razı qaldı. Quşlara isə «sədəf quşu» adı verdi.

Qoşar qalsın burada, görək Qoşarın ağlamaqdan gözləri kor olan atası Ucar xan necə oldu? Nə qədər həkim, cərrah və ovsunçu var idisə hamısını topladılar, lakin onların heç biri Ucar xanın gözlərinə əlac edə bilmədi. Daha onun sağalmasına ümid qalmamışdı.

Sehrli at bu əhvalatdan xəbər bilib qayıtdıqda Qoşarı həmin daşın yanında yatmış tapdı. At ayağını yerə döyüb kişnəyən kimi Qoşar sıçrayıb yuxudan ayıldı. Atın gətirdiyi xəbər onu tamamilə kədərləndirdi. O, atasına üz verən ağır fəlakətdən məyus olub ağladı. Anası və bacısı gözlərinin qabağına gəldi. At Qoşara təsəlli verərək dedi:

— Ağlamaq acizlik əlamətidir. Bu hərəkət sənə heç yaraşmır. Bir də ki, ağlamaqla sən atanın dərdinə dərman edə bilməyəcəksən. Mənə qulaq as, gör nə deyirəm.

Qoşar gözlərinin yaşını silib ayağa qalxdı və mehriban atın boynuna sarılaraq dayandı. At dedi:

— Atanın gözlərini sağaltmaq üçün yalnız bir dərman vardır. O da dəniz atının südüdür. Onu dənizdən çıxarıb sağmaqdan ötrü əvvəlcə dəniz ayğırını çıxartmaq lazımdır. İndi mən dənizə girib həmin ayğırla döyüşməliyəm. Suyun üzündə qan görünsə, onda bil ki, dəniz ayğırı məni öldürmüşdür. Hərgah su bulanmağa başlasa, onda yəqin et ki, ayğırı tutub gətirirəm; mən dəniz ayğırını çıxarıb yerə vuran kimi sən onu yallayıb minər, düz mənim dalımca sürərsən.

Qoşarı tamamilə başa salandan sonra sehrli at dənizə cumdu. Çox keçmədi ki, suyun üzü köpükləndi, sehrli at ayğırın boynundan dişlərilə bərk-bərk tutaraq onu sahilə çıxarıb yerə vurdu və Qoşara qışqırdı:

— Durma, tez ol, min!

Qoşar dəniz ayğırının əlindən tutaraq sıçrayıb belinə mindi və sürdü. Ayğır yel kimi yerindən qopdu.

Ucar xanın adamları baxıb gördülər ki, cavan bir oğlan əcaib bir ayğırın üstündə tufan kimi gəlir. Onun dalınca da sel tək ilxı axışıb gəlməkdədir. Qoşar atasının sarayına yetişən kimi əmr etdi ki, xidmətçilər madyanları sağsınlar. Xidmətçilər madyanlardan bir hovuz süd sağıb, sonra Ucar xanı süd hovuzunda çimdirdilər.

Ucar xanın gözləri anadan yeni doğulmuş kimi işıqlandı. Qoşarın atası, anası və bacısı onu bağırlarına basıb oxşadılar. Qoşar onlardan ayrı düşəndən bəri başına gələnlərin hamısını onlara söylədi. Hamı onun cürətinə, səbr və mətanətinə heyran qaldı. Ekiz Qoşarın adı bütün elin ağzında bir dastan olub söyləndi.

KİTABIN İÇİNDƏKİLƏR

Nigarın macərası............................... 2

Əkiz Qoşar və sehrli at..................... 31

**Шамилов Сейфулла Али оглы**

**Приключения Нигяр**

По мотивам азербайджанских народных сказок

на Азербайджанском языке)

Redaktoru Y. Məmmədov

Bədii redaktoru F. Quliyev

Tex. redaktoru V. Avadyeva

Korrektoru L. Balayeva

---

Çapa imzalanmış 20/1 1958-ci il.

Formatı $70x92^{1}/_{16}$.—2=4.68 ç. v.

Uc-nəşr. v. 2.8. FQ 13134. Tirajı 15000.

Sifariş 24. Qiyməti 1 man. 35 qəp.

Uşaqgəncnəşr. Bakı, Fioletov küçəsi, 8.

---

Azərbaycan SSR Mədəniyyət Nazirliyinin

„Qızıl Şərq" mətbəəsi

Bakı, Həzi Aslanov küçəsi. 80.